**Vilyam Şekspir:**
*Həyat teatrdı,*
*insanlar aktyor*

# Oyun və ya üçüncü artıqdır

## (Psixoloji hekayə)

**Onların dostluğu bir təsadüfdən başlamışdı... Həmişə olduğu kimi həyətdə uşaqlar ucadan qışqıra-qışqıra futbol oynayırdılar. Ruslan da kənarda dayanıb onların oyununa tamaşa edə-edə iki üç il bundan qabağı xatırlayırdı. O da öz yaşıdları ilə hər gün dərsdən gələn kimi top qovalayardı. Amma indi universitetdə psixologiya ixtisasi üzrə birinci kurs tələbəsi idi. Boş vaxtlarında müntəzəm idman məşqlərinə gedir, üzgüçülüklə məşğul olurdu. Günü-gündən kişiləşirdi, sinəsi enlənmiş, əzələləri geyindiyi nazik köynəyinə iz salırdı. Təzəcə buraxdığı qısa saqqal və nazik bığ onu çox yaraşıqlı göstərirdi. Digər oğlanlar kimi, o da qızların diqqətini çəkməsi ilə gizlincə fəxr edirdi.**

***(Əvvəli ötən saylarımızda)***



> İndi bu oyunu necə qurtarmaq problemi tam ciddiliyi ilə hər iki gəncin qarşısında durmuşdu. Fərid hər şeyi Ruslanın ixtiyarına buraxmış, taleyi ilə barışmış bir adam görkəmi almışdı. Onun üçün seçim problemi yox idi. Hər iki obrazda Ruslan onu sevirdi. Ruslanın vəziyyəti isə bundan fərqli idi. O, həyatının ən ağır seçimi qarşısında durmuşdu. Həmişə qarşısına çıxan istənilən çətinlikdən asanlıqla çıxmaq üçün çıxış yolu tapan Ruslan indi düşdüyü vəziyyətdən necə xilas olmağı düşünmək gücündə deyildi. Həm də çıxış yolu yox idi. Əgər o, qarşısındakını dostu Fərid kimi qəbul etsəydi, həyatı qədər sevdiyi sevgilisi Fəridəni əbədi itirəcəkdi...

Ruslan Fəridin sözlərində nə təəssüf, nə qısqanclıq, nə də kədər hiss etmədi. Əslində, evlənməyinin Fəridlə dostluğuna pis təsir edəcəyindən narahat idi. İndi Fərid, əksinə, onlara xeyir-dua verəndə Ruslan xeyli rahatlandı. Planlarını Fəridə açdı:

- Amma ən azından həmin gün mənim yanımda ol, səni onunla tanış edim.

Fərid:

- Baxım da, işim olmasa mütləq gələrəm - dedi. Sonra da əlavə etdi: -Mən sənin ürəyindəyəmsə, həmişə səninləyəm, sənin kiminlə bir yerdə olmagından asılı olmayaraqg

Ruslan ürəyində Fəridə haqq qazandırdı. Həqiqətən də Fərid onun ürəyində özünə yer tutmuşdu.

Ruslanın planlaşdırdığı gün gəlib çatdı. O, Fəridəni götürüb evlərinə gətirdi. Hava qaranlıqlaşırdı. Fəridə üçün aldığı gəlinlik paltarını çıxarıb ona verdi: - Geyin, bunu sənə toy hədiyyəsi almışam, - dedi. Sonra cibindən təkqaş brilyant üzük çıxarıb Fəridənin barmağına taxdı. Bu zaman onun əlindən tutanda elə bildi ki, Fəridin əlini tutur. Çünki Fəridənin əlinin hərarəti ona çox tanış gəldi. Yenə də özündə bir hallar olduğunu düşünüb, buna fikir vermədi. Üzüyü Fəridənin barmağına taxandan sonra alnından öpüb, - həyatıma xoş gəldin, sevgilim - dedi.

Fəridə həyacandan tir-tir əsə-əsə dilləndi:

- Sən nə olursa-olsun mənimlə evlənəcəksən? Sən həmişə məni sevəcəksən? Heç vaxt məndən imtina etməyəcəksən ki?!

Ruslan nəfəsi kəsilə-kəsilə cavab verdi:

- Əlbəttə sevgilim, məni səndən ancaq ölüm ayıra bilər. Nə olursa-olsun, səninlə olacağam.

Sonra Ruslan yuyunmaq üçün vanna otağına keçdi. O, həyəcanını yatırmaq üçün soyuq su ilə yuyundu. Qəsdən vanna otağında bir qədər gecikdi ki, Fəridə də rahat paltarlarını dəyişə bilsin.

Ruslan vanna otağından çıxıb, Fəridənin olduğu yataq otağına keçdi. Otaq ala qaranlıq idi. Görünür, Fəridə utandığından işığı söndürmüş, yenicə geyindiyi gəlinlik paltarında üzü pəncərəyə tərəf oturmuşdu. Ruslan astaca arxadan ona yaxınlaşdı. Fəridə başını aşağı salmış, gəlinlik örpəyini üzünə örtmüşdü. Ruslan qaranlıqda Fəridənin üzündən ağ örpəyi qaldırdı və yerindəcə donub qaldı.

Fərid gəlinlik duvağının altından çaşqın və qorxaq nəzərləri ilə ona baxırdı. Ruslan Fəridlə Fəridəni niyə bu günə kimi görüşdürə bilmədiyini indi anladı. Fəridə elə Fərid idig

...Fərid əslində Ruslanla öz aralarındakı dostluqlarını sınamaq üçün bir plan düşünmüşdü. Qız rolunda Ruslanla tanış olacaq, ondan özü haqqında əsl münasibəti öyrənəcək, sonra da roldan çıxıb Ruslanla həyatlarını və dostluqlarını davam etdirəcəkdi. Bunun uçun o, Ruslanla görüşə gedəndə hər dəfə qız kimi qrimlənir, xüsusi parik geyir, gözlərinin rəngini dəyişdirmək üçün mavi rəngli linza taxırdı. Qız kimi danışmaq və davranmaq isə onun üçün çətin deyildi. O, məharətli bir aktyor kimi, istənilən rolu mükəmməl şəkildə oynaya bilirdi.

Amma ilk gündən qız rolunda ürəyində Ruslana dostluqdan fərqli hisslər bəslədiyinin fərqinə vardı. Digər tərəfdən, Ruslanın Fəridin oyunundan heç nə başa düşmədən onun girdiyi rola vurulması, ona eşq elan etməsi Fəridin o qədər xoşuna gəlmişdi ki, o, roldan çıxmır, oyunu mümkün qədər uzadırdı. Amma gün keçdikcə özü də bilmədən qurduğu oyundan çıxa bilmirdi. Ruslan onu həm sevdiyi qız, həm də çox yaxın oğlan dostu kimi sevirdi. O isə Ruslanı bir məhəbbətlə - dostluqdan daha güclü məhəbbətlə sevirdi. İllərdi qəlbində gəzdirdiyi Ruslana olan gizli sevgisini indi açıq, amma qız rolunda onunla bölüşdürür, bundan da nəhayətsiz ləzzət alırdı.

Ruslanın evlənmək təklifi onun uçun gözlənilməz oldu. O, bu oyunun bu qədər sürətlə başqa bir məcraya yönələcəyini gözləmirdi. Amma artıq oyunun son pərdəsini oynamaq məcburiyyətində idi. Onun qarşısında iki yol var idi: ya oyundan çıxmaq, hər şeyi Ruslana söyləmək, ya da oyunu sonuna kimi oynamaq. Bu son haqqında onda heç bir təsəvvür belə, yox idi. O, özünü qeyri-müəyyənliyin girdabina buraxdı. Oyundan çıxmaq istəmirdi. Çünki buna gücü çatmırdı. Oyunu davam etdirmək isə sonun necə olacağı ilə bağlı suala cavab verməyi tələb edirdi. Onunsa belə bir cavabı yox idi. O, hər şeyi öz axarına buraxmağı qərara aldı. Əgər Ruslan ondan dost kimi imtina edəcəksə, deməli, ona qarşı sevgisi güclü olmayıb. Yox, imtina etməsə?!..

gRuslan Fərid-Fəridənin qarşısında heykəl kimi dayanmışdı. Qeyri-ixtiyari "Bu nə oyundu?!" deyə bildig

İndi bu oyunu necə qurtarmaq problemi tam ciddiliyi ilə hər iki gəncin qarşısında durmuşdu. Fərid hər şeyi Ruslanın ixtiyarına buraxmış, taleyi ilə barışmış bir adam görkəmi almışdı. Onun üçün seçim problemi yox idi. Hər iki obrazda Ruslan onu sevirdi. Ruslanın vəziyyəti isə bundan fərqli idi. O, həyatının ən ağır seçimi qarşısında durmuşdu. Həmişə qarşısına çıxan istənilən çətinlikdən asanlıqla çıxmaq üçün çıxış yolu tapan Ruslan indi düşdüyü vəziyyətdən necə xilas olmağı düşünmək gücündə deyildi. Həm də çıxış yolu yox idi. Əgər o, qarşısındakını dostu Fərid kimi qəbul etsəydi, həyatı qədər sevdiyi sevgilisi Fəridəni əbədi itirəcəkdi. Yox, onu Fəridə kimi qəbul etsəydi, onda canından artiq sevdiyi dostunu itirəcəkdi. Ruslan onlardan heç birini itirmək istəmirdi. Çünki üçüncü onun üçün artıq deyildi...

Ruslan indi başa düşürdü ki, "ölüm, ya olum" sualına cavab verməlidir. Fərid ağ gəlinlik paltarında dostunun qəbul etdiyi istənilən hökmə baş əyəcək bir vəziyyət almışdı. Zatən o da bu vəziyyətdən çıxmağın doğru-düzgün həll yolunu bilmirdi. İndi o, məharətlə oynadığı oyunun qurbanına çevrilmişdi. Onun üçün teatr rolu ilə həyat rolu arasında bütün fərqlər itmişdi. Belə yaşamağı davam etdirmək isə yalnız Ruslandan asılı idi. Ruslan hər ikisinin əvəzindən düzgün hesab etdiyi qərarı açıqladı: "Mən nə sənsiz, nə də Fəridəsiz yaşamaq istəmirəm". Fərid də "mən də sənə qarşı olan ikili hissin heç birindən imtina etməyi bacarmaram və bunu istəmirəm də", - deyə bildig

...Səhərisi Ruslanin ailə üzləri rayondan evlərinə qayıtdılar. Qapının zəngini nə qədər çaldılarsa, açan olmadı. Qonşudan Ruslanın evdən çıxıb-çıxmadığını soruşdular. Qonşu onu dünəndən bəri görmədiyini dedi. Valideynləri təşvişə düşdü. Əvvəl evə zəng vudular. İçəridən öz zənglərinin səsini eşitdilər, amma kimsə cavab vermirdi. Sonra Ruslanın əl telefonuna zəng vurdular. Telefon çağırır, ancaq Ruslan telefonu açmırdı. Anasının ürəyinə damdı ki, nəsə pis bir hadisə baş verib. Odur ki, çilingər çağırıb qapını açdırdılar. İçəriyə girəndə gördükləri mənzərədən dəhşətə gəldilər. Fəridlə Ruslan döşəmədə yanyana uzanmışdılar. Fəridin başı Ruslanın sinəsinin üzərində idi. Ruslanın qolu Fəridin boynuna dolanmışdı. Hər ikisinin üzündə xöşbəxtlik hissi donub qalmışdı. Bir az aralıda tamamilə boş yuxu dərmanının qutusu nə baş verdiyini göstərirdi...

Ruslanın atası özünü irəli atdı. Əlini oğlunun şah damarının üzərinə qoydu. Ruslan və Fərid çoxdan bu dünyadan köçmüşdülər.

Səhər qəzetlərdə iki gəncin yaşadıqları mənzildə naməlum səbəblərdən intihar etdikləri ilə bağlı məlumat çap olunmuşdu. Məlumatda istintaqın getdiyi, amma hələlik gənclərin intiharının səbəbi ilə bağlı heç bir ağlabatan dəlilin əldə olunmadığı xüsusilə vurğulanırdı...

**AZAD**